**UOT 745/749**

**Flora İsgəndərli**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**dissertant**
**E-mail: isgenderliflora1987@gmail.com**

# KAZIM KAZIMZADƏNİN YARADICILIĞINDA İKİNCİ DÜNYA MÜHARİBƏSİ MÖVZUSU

**Xülasə:** Məqalədə xalq rəssamı Kazım Kazımzadənin II dünya müharibəsinə həsr edilmiş əsərləri tədqiq edilmişdir. Müəllif, əsasən, rəssamın 1960-cı ildə işıq üzü görmüş albomuna daxil edilən rəsm əsərlərini tədqıqatın obyekti kimi seçmişdir. Müharibənin günlük yaşantıları, iştirakçısı olan insanların uyğun məkan təsvirləri rəssamın kağız üzərində müxtəlif karandaş və digər texnikalarda həyata keçirdiyi əsərlərlə maraq oyadır. Sənətkarın hər bir əsər üzərində daxildən gələn hisslərinin həyəcanı, gördüyü və yaşadığı hər şey üçün nə qədər dərindən keçirdiyi narahatlığı hər bir cizgidə özünü hiss etdirir. Rəssamın bu tablolarını görən hər kəsdə onun düşmənlərinə duyduğu nifrətin, vətənpərvərliyinin, həlak olmuş vətən övladlarına duyduğu böyük acıdan təsirləndiyi təəssüratı yaranmış və bugünkü günümüzdə də yaranmaqda davam edir.

**Açar sözlər:** Qrafika, Kazım Kazımzadə, müharibə, lirika, obraz, mənzərə, məkan.

1960-cı ildə “Yazıçı” nəşriyyatında Xalq rəssamı Kazım Kazımzadənin əsərlərindən ibarət albom nəşr edilmişdir. Həmin əsərlər II Dünya Müharibəsi və onun iştirakçıları mövzusuna həsr edilmişdir. Kazımzadə özü də 1944-cü ildə müharibəyə çağırılmış, sonralar hərbi qəzetdə fəaliyyət göstərmişdir. Rəssamın müharibənin böyük sınaqlardan keçmiş ağır, fəlakət dolu illərinin canlı şahidi olması onun bu istiqamətdə yaradıcılığının yeni bir qolunu təşkil edən əsərlər üzərində çalışmasına gətirib çıxartmışdır. Qrafik formatda həll edilmiş həmin əsərlərdəki ağır döyüş, onun nəticələri, qələbəyə inam əsas mövzular kimi qarşıya çıxaraq realistik janrın uğurlu, dolğun kompozisiya quruluşları ilə diqqəti cəlb edir.

Kazımzadənin II Dünya Müharibəsi mövzusundakı yaradıcılığı iki dövrü əhatə edir. Birinci dövr müharibənin ən ağır illəri olan 1943-cü ildən yaratdığı əsərləridir. İkinci dövrü isə qələbədən 34 il sonra, 1979-cu ildə üzərində çalışdığı, artıq yaddaşlarda qalan unudulmaz xatirələrin tərənnümünə həsr edilmiş əsərləri təşkil edir (1, 56).

Qeyd edilmiş mövzuya həsr edilmiş əsərlərdən 1943-cü ildə rəssamın daha ağır, sərt döyüş səhnələrini əks etdirməsi təbii haldır. Belə nümunələrdən birində başında dəmir dəbilqə, əlində silahı, ağır, soyuq qış günləri gedən mübarizənin içərisində olan iki hərbçinin böyük təəssüflə, ürək yanğısı ilə həlak olmuş insanların yerə sərilmiş cənazələrini izləmə səhnəsi verilmişdir. Əsərin ruhunda böyük ürək yanğısı, məyusluq hökm sürməkdədir. Ağ fon üzərində qara ləkələrlə edilmiş hava mühitin soyuqdan bozaran tonları bu hisslərin daha dərin yaşantılarını təqdim edir. Qara tuşun istifadəsində verilmiş məharətli bədii effektlər təsvir edilmiş obyekt və elementlərin emosional təsir gücünə öz təsirini göstərməkdədir.

Uzaqda dalğalanan qara suların arxasında iri tankların tərənnümü də qara tonun kəskin yaxıları ilə öz ağırlığını təqdim edir. Bu ağırlıq sadəcə metal kütlənin çəkisi deyil, insan dünyasına yüklənmiş mənəvi sarsıntıların da ağır çəkisidir.

Ön hissədə böyük bir daşın üzərində dayanmış iki obraz canlandırılmışdır. Onların hər ikisi eyni hissləri yaşasalar da, fərqli xarakterik obrazlı ifadələr rəssamın böyük sənətkarlığına məxsus psixoloji dərkini açıqlayır. Belə ki, birinci obraz daha gəncdir və o baş verənlərin önündə dayanaraq daha qəmgin baxışları ilə nəzərlərini uzaqlara dikmişdir. Bu nəzərlərin arxasında qisas, vətəni xilas etmək kimi hisslər dayanır. Rəssam öz daxili sarsıntılarını hisslərinin daha lirik bədii ifadəsi ilə əsərə yansıtmışdır.

İkinci obraz isə bir qədər orta yaşlı hərbçini təmsil edir. O, daha realistik olaraq baş verənləri müharibənin ağır faciəsi olaraq qəbul etdirmişdir. O, bütün diqqəti ilə yerə sərilmiş cənazələrə baxaraq bundan sonrakı növbəti addım haqqında düşünür. İki obraz arasındakı fərq onların birinin praktik ani çıxış yolu ilə bağlı düşüncəyə malik olması, digərinin isə daha həssas xarakterik mühitə sahib olmasını təsdiqləyir.

Əsər sağ hissədən uzanaraq tablonun sol qismində təsvir məkanını eyniləşərək onun sərhədsizliyinə doğru hərəkət edən təsvir forması ilə açıq kompozisiyanın imkanlarına sığacaq incə məqamlarınadək hadisəni əks etdirmişdir. Səmanın qara buludlu tutqun tonu əsərin ümumi ruhu ilə əlaqləndirilərək öz təsviri yaşantılarını tamaşaçılarına hiss etdirir.

Ukraynanın Böyük Belozerko vilayətində baş verən müharibə səhnələrinə həsr edilmiş 1943-cü ildə yaradılmış əsər savaşın kəskin səhnə tərənnümü ilə bağlı dinamik səhnələri deyil, daha kədərli bir mənzərəni əks etdirir. Qədim bir kənd mənzərəsi - kiçik damlı evlər, tək-tək sıralanmış ağacların çılpaqlaşmış budaqları və s. bütün bunların daxilində bir sükut, boşluq hökm sürməkdədir. Kənd sakinləri sürgün və məhv edilmiş, insanların rahat yaşantılarına ağır bir zərbə vurulmuşdur. Rəssam bu faciəni dağınıqlıq, xaos təşkil edən bir mühitlə deyil, boş qalmış dərin bir kədərlə tərənnüm edərək hisslərin bütün ağırlıqlarını kağız material üzərinə köçürməyi bacarmışdır.

Kazım Kazımzadənin əsərində uzaqdakı siluet təsvirlərinin önündə iki əks istiqamətdə dayanmış kiçik damlı kənd evlərinin pəncərələrindən “boylanan qaranlıq” və onların arasında verilmiş tənha ağacın “kədəri” psixoloji təsir vasitəsinin həssas tərənnümü kimi tamaşaçısına böyük həyəcan, yaşantıların kədərini çatdırır. Hətta evlərdən birinin qarşısında kiçik taxta oturacaq da verilmişdir. Həmin xırda detalın belə əsərdəki məqsədli təsiri dolğun kompozisiyanın yaradılmasında öz rolunu oynamışdır. Detalların bütün incəliklərinə qədər doğru yerində həll edilməsi rəssamın mənzərələrində incə hissiyyatını, dərin müşahidəçiliyini bir daha təsdiq edir.

Eyni kənd mənzərəsində “Döyüşçülərlə söhbət” tablosunda rəssam daha çox səhnə tərənnümünə yer vermişdir. Kəndin ayrı tikililəri deyil, sırf onun təbiətini, soyuq iqlimini göstərən şaxtalı hava mühitinin tərənnümündə rəssam kölgələrin, ləkələrin bədii ifadəsindən mükəmməl şəkildə istifadə etmişdir. Sıraya düzülmüş əsgərlərin siluet təsvirləri simvolik təəssürat daşıyır. Cərgə ilə sıralanmış hərbçilərin eyni məqsəd uğrunda döyüşmələri, mübarizəsi rəssam tərəfindən onların oxşar tipoloji xarakteristikasının ümumiləşdirilmiş formasının verilməsi ilə həll edilmişdir.

Arxa fonda qarlı dağlar əks olunmuşdur. Sənətkar bu mənzərəyə ləkə atışlarının, ştrixlərin uğurlu vuruşları ilə nail olmağı bacarmışdır. Bütün bunlar soyuq qış günü və belə bir zamanda gedən mübarizənin gərginliyini, ciddiliyini bütün təfərrüatı ilə bir tabloya sığdırmağa nail olmuşdur.

Səhnənin daha ön hissəsində və yan tərəflərdə qara ştrixlər kəndin elementlərinin simvolik tərənnüm formasını canlandırır. Bununla da, ümumi olanın bir vahid təsvirə tabe edilməsi haqqında fikirlər əsərin səciyyəvi xüsusiyyətini xarakterizə edir. Obyekt və elementlər arasındakı uyğunluq tabloda rəssamın canlandırmağa çalışdığı abu-havanı daha real formalarla tamaşaçısına çatdırır.

Tablonun əsas obrazları olan baş hərbçilər üzləri əsgərlərə tərəf olsalar da, onların bədən jestlərinin düzgün tərənnümü ciddi xarakterik obraza sahib olmalarından xəbər verir. Bu xarakterik mübarizliyi, qorxmazlığı, böyük təcrübəni, hərbi-siyasi savadı özündə birləşdirmişdir. Çiyinlərində ağır qara plaş, başlarında hərbi papaq olan baş komandanlar döyüşün, əsgərlərin bu gün apardıqları mübarizənin bütün xalqın həyatını və müqəddəratını həll etməsi kimi həyati vacib məsələyə yönəli olduğunu qürurla diktə edirlər. Bu qürur şux qamət, sarsılmaz cizgilərin vasitəsilə öz uğurlu həllini tapmışdır.

Tablo sağ aşağı küncdən öz təsvir nöqtəsinə başlayaraq yuxarı sol hissəyə qədər uzanaraq gözdən itməyə başlayır. Rəssam təsvirin hüdudsuzluğu, sərhədsizliyi ilə möhtəşəmliyin, məğlubedilməzliyin həssaslığını çatdırmağa çalışmışdır. Vətənpərvər hisslərin bariz əksini verən əsərdə rəssamın şəxsi münasibəti, daxili hissləri bütün tablonun xarakterik canlandırlmasında ən vacib əsas kimi

qarşımıza çıxır.

Rəssamın 1943-cü ildə yaratdığı əsərləri içərisində iki eyni mövzulu əsəri vardır ki, onların hər birində mənzərə təsvirinin müharibə və yaşam, zaman və mühit çərçivəsinə bağlı yaşantıları əks etdirən təbiət mənzərəsi özünün həssas tərənnümü ilə diqqəti cəlb edir.

Rusiyanın Rostov-na-Donu vilayətinə həsr edilmiş hər iki əsərdə təbiətin sakit, lakin olduqca kədərli mühiti ilk olaraq diqqəti cəlb edir (2, 7). Tablolardan birincidə uzun tramvay dəmir xəttinin qarşısında verilmiş binaların tərənnümü diqqət çəkir. Elektrik sütunlarının, işıqforun da ümumi ansamblla birləşərək yaratdığı mənzərə adi bir təsviri deyil, yaşantıların sonrasını, nəticələrini özündə əks etdirir. Nədir bu yaşantılar? Əslində, şəhər olduğu kimi öz yerində qalmışdır. Dağılan isə arzular, ümidlərdir. Bu həssas bədii ifadənin canlandırılmasında rəssam ağ və qara təzadının kəskin keçidlərindən uğurla bəhrələnmişdir.

Buludlu bozumtul hava mühiti, qaralan şəhər elementlərinin sanki boşalmış, tənhalaşmış yalqızlığını anlatmağa çalışır öz tamaşaçısına. Bir şəhərin yorğun düşmüş mənzərəsi onun hərəkətsizliyində, yaşamın sanki bir anlıq sükuta qərq olmasında özünü göstərir.

Digər eyni adlı əsərdə də Rostov-na-Donu vilayətinə məxsus bölgənin səssizliyi diqqət çəkir (3, 16). Lakin burada artıq insanların yaşamadığı məkanda həyatın öz-özünə məhv olmasına başlaması, tərk edilmiş evlərin, sütunların, bağ-bağçaların dağılmağa başlaması rəssamın böyük ürək yanğısı ilə təsvirə aldığı əsərində olduqca real formalarla canlandırılmışdır.

Birinci tabloda vaxtilə ucaldılmış evlər XIX əsr rus memarlığının sadə xarakterik formasını əks etdirməklə bərabər, onun zamana uyğun viranəliyində “sönən işıqlarını”, uşaq səsi gəlməyən məhəlləsini, artıq qadınların bir yerdə toplanıb söhbət etmədiyini, kişilərin günlük həyatlarında adi məişət qayğılarından uşaqlaşdığını istedadlı sənətkar elə ustalıqla canlandırmışdır ki, sanki artıq günəş də bu şəhərin üzərində doğmayacaq.

Tablonun sağ hissəsində verilmiş bir körpünün kiçik fraqmenti tramvay dəmir yolu üzərindən keçidi əks etdirir ki, bununla da tamaşaçı bir zamanlar buradakı şəhər dinamikası, hərəkətlilik, həyatın canlılığı təəssüratını özlüyündə canlandırmaya bilmir. Keçid olan körpü də, tramvay xətti də öz susqunluğu, məqsədlərinin sona gəlişi ilə canlı orqanizm kimi kədərə bürünmüşdür sanki. Binaların da pəncərələrindən görünən mənzillərin qaranlığı, səssizliyi bütün ağırlığı ilə tabloya çökdürülmüşdür. Şəhərin üzərində o tərəf, bu tərəfə verilmiş sıralı elektrik sütunlarının simləri real mənzərə təsvirinin tərənnümündən əlavə, şəhər üzərindəki kədərli melodiyanın arxasından susmuş notlar üzərindəki səssizliyi əks etdirir sanki.

Əsərin sol hissəsinə doğru bütün təsvirlər getdikcə qaralaraq siluetə dönməyə başlayır yavaş-yavaş. Bu bədii ifadə ilə rəssam faciənin daha geniş miqyasa sahib olduğunu vurğulamağa çalışmışdır.

Beləliklə, Kazım Kazımzadənin bu silsiləyə daxil edilən əsərlərinin təhlili belə bir qənaət irəli sürməyə əsas verir ki, rəssamın sovet rejiminə əsaslanan təsviri sənət qarşısında qoyduğu tələblərə baxmayaraq, milliliyin önə çəkilməsində, eləcə də şəxsi hisslərinin tərənnümündə mükəmməl bədii vasitələrdən istifadəyə üstünlük verməsini qeyd etməyə əsas verir.

**Ədəbiyyat siyahısı:**


1. Kərimova S. Kazım Kazımzadə. Bakı: 2014. – 303 s.
2. Əliyev Z. Cizgilərdə yaşayan ömür // Respublika, - 2013. - 7 avqust, - s. 7
3. Əliyev Z. Sənətkar ömrü. Bakı: 1993. - 32 s.



**Флора Искендерли**


## ТЕМАТИКА ВТОРОЙ МИРОВОЙ ВОЙНЫ В ТВОРЧЕСТВЕ КЯЗИМА КЯЗИМЗАДЕ


**Резюме:** В статье исследуются работы народного художника Кязима Кязымзаде, посвященные Великой Отечественной войне. В качестве объекта исследования автор, в основном, выбрал картины, вошедшие в альбом художника, изданный в 1960 году. Повседневная жизнь в период войныи соответствующие пространственные описания задействованных людей вызывают интерес в работах художника, выполненных с использрванием различных технических решений. В каждом штрихе картин чувствуется волнение и внутренние переживания художника, глубокая забота обо всем, что он видел и чувствовал в этот тяжелый период. У каждого зрителя картин этой серии создавалось впечатление о том, что на художника сильно повлияла ненависть к своим врагам, его патриотизм и огромная боль, которую он испытывал за падших в бою сыновей Родины.Такое впечатление зрителя продолжается и по сей день.



**Ключевые слова:** графика, Кязым Кязимзаде, война, лирика, образ, пейзаж, пространство

**Flora IsgandarliTHE**

**THEME OF THE WORLD WAR II IN THE CREATIVE ACTIVITY OF KAZIM KAZIMZADE**

**Summary:** In the article the works by People's Artist Kazim Kazimzadededicated to World War II are studied. The author mainly selected the worksas the object of research included in the artist's album, which was published in1960. The daily experiences of the war, the appropriate space images of the participants evoke interest with the works carried out by the artist on paper invarious pencils and other techniques. The excitement of the feelings of the artistcoming from within each work, his deep concern for everything he saw and experienced shows itself in each picture. Everyone who sees these paintings bythe artist has the impression that he is affected by hatred, patriotism and greatpain to the children of the motherland and continues to be created even today.

**Key words:** graphics, Kazim Kazimzade, war, lyrics, image, landscape, space

**Məqalənin redaksiyaya daxil olma tarixi: 29. 11. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı:sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**